RAMAZAN BAYRAMINIZ MÜBARƏK!

15 (1270)

20-26 aprel 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet

Qiyməti razılaşma yolu ilə

Qəzet 1999-cu ildən çıxır

## İSRAİL ŞİRKƏTLƏRİNİN ƏLƏT AZAD İQTİSADİ ZONASINDA FƏALİYYƏT GÖSTƏRMƏLƏRİ ÜÇÜN YAXŞI İMKANLAR VAR



"Hazırda Azərbaycanda iqtisadiyyatın modernləşdirilməsi prosesi uğurla həyata keçirilir. Bu baxımdan texnologiyalar sahəsində, o cümlədən yaşıl enerji, ağıllı şəhər və ağıllı kənd konsepsiyaları ilə bağlı təcrübə mübadiləsi önəm daşıyır".

Bu barədə Prezident İlham Əliyev aprelin 19-da İsrail Dövlətinin xarici işlər naziri, Birgə Komissiyanın həmsədri Eli Koheni qəbul edərkən bildirib.

Dövlətimizin başçısı deyib ki, İsrail şirkətlərinin Ələt Azad İqtisadi Zonasında da fəaliyyət göstərmələri və yeni layihələrlə çıxış etmələri üçün yaxşı imkanlar var. Həmçinin SOCAR-ın İsraildə karbohidrogen resurslarının istismarında iştirakı imkanlarına baxılması da önəmlidir.

Hazırda Azərbaycanda iqtisadiyyatın modernləşdirilməsi prosesinin uğurla həyata keçirildiyini bildirən Prezident İlham Əliyev bu baxımdan texnologiyalar sahəsində, o cümlədən yaşıl enerji, ağıllı şəhər və ağıllı kənd konsepsiyaları ilə bağlı təcrübə mübadiləsinin önəmini qeyd edib.

## "İSRAİL İLƏ AZƏRBAYCAN ARASINDA ƏLAQƏLƏR STRATEJİ XARAKTER DAŞIYIR"

"Azərbaycanın İsraildə səfirliyinin açılması ölkələrimiz arasında strateji əlaqələr qurulması işinə töhfə verəcək".

Bunu İsrail Dövlətinin xarici işlər naziri, Birgə Komissiyanın həmsədri Eli Kohen Prezident İlham Əliyevlə görüşdə deyib.

İsrail ilə Azərbaycan arasındakı əlaqələrin strateji xarakter daşıdığını vurğulayan nazir qeyd edib ki, həm dövlətlərimiz, həm də xalqlarımız arasında dostluq münasibətləri mövcuddur.

Eli Kohen turizm sahəsində əlaqələrə toxunaraq bildirib ki, İsraildən Azərbaycana gələn turistlərin sayı artmaqdadır. Onun sözlərinə görə, ölkələrimiz arasında ticarət dövriyyəsinin artım tempi müşahidə edilir və bunun daha da artırılması üçün geniş imkanlar var.

## "AZƏRİŞIQ" ASC-NİN SALYAN RƏQƏMSAL İDARƏETMƏ MƏRKƏZİ İŞƏ SALINIB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də "Azərişıq" ASC-nin Salyan Rəqəmsal İdarəetmə Mərkəzinin açılışını edib.

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov bildirib ki, Salyan şəhərində yaradılan Rəqəmsal İdarəetmə Mərkəzi vasitəsilə dispetçer idarəetmə sistemi ilə aşağı gərginlikli şəbəkələr tərəfindən elektrik enerjisinin son istehlakçıyadək çatdırılması nəzarətdə saxlanılır. Eyni zamanda, 110, 35, 10-6 və 0,4 kV-luq şəbəkələrin real vaxt rejimində güc imkanlarının qiymətləndirilməsi, zəruri hallarda digər mənbələrə yönləndirilməsi və rəqəmsal hesabat sisteminin qurulması ilə abonent məmnunluğu təmin olunur.

Prezident İlham Əliyev "Azərişıq" ASC-nin Salyan Rəqəmsal İdarəetmə Mərkəzini işə salıb.

Salyan Rəqəmsal İdarəetmə Mərkəzinin dispetçer sistemi həm mərkəzləşdirilmiş, həm də müstəqil funksional rejimlərdə istismar imkanına malikdir.

## "AZERBAIJAN FISH FARM" MMC-NİN YENİKƏND NƏRƏ DAMAZLIQ TƏSƏRRÜFATI YENİLƏNİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 18-də Neftçalanın Yenikənd kəndində "Azerbaijan Fish Farm" MMC-nin Nərə Damazlıq Təsərrüfatında yaradılan şəraitlə tanış olublar.

Bildirilib ki, S.Q.Kərimov adına Kür-təcrübi nərə balıqartırma zavodu 1954-cü ildə istismara verilib və özəlləşdirilənədək Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində fəaliyyət göstərib. Özəlləşdirildikdən sonra müəssisədəki 34 nohur tam yenidən qurulub, qapalı su çevrəsi əsasında fəaliyyət göstərən texnologiya alınıb, hovuzlar təmir olunub və yeni hovuzlar quraşdırılıb. Həmçinin yeni idarə binası, yeməkxana və "Qonaq evi" binası müasir səviyyədə inşa olunub, su təchizatı sistemi yenilənib, ərazi abadlaşdırılıb. Diqqətə çatdırılıb ki, investisiya proqramının icrası nəticəsində müəssisənin Xəzəryanı dövlətlər arasında ilk dəfə olaraq nohur, açıq su təchizatı sistemi və qapalı su çevrəsi əsasında fəaliyyət göstərən ixtisaslaşmış damazlıq təsərrüfatının yaradılmasına nail olunub.

Müəssisəyə 16 milyon manata yaxın vəsait yatırılıb, 90-dək yeni iş yeri yaradılaraq işçilərin ümumi sayı 115 nəfərə çatdırılıb. Onların orta aylıq əməkhaqqı 600 manat təşkil edir. Vurğulanıb ki, hazırda müəssisə tam özəl sahibkarlıq subyekti olduğundan "Azerbaijan Fish Farm" MMC-nin Yenikənd Nərə Damazlıq Təsərrüfatı adlanır.



# “AZƏRBAYCAN BÖLGƏLƏRİNİN ÜMUMİ İNKİŞAFI HƏM SOSİAL XARAKTER DAŞIYIR, EYNİ ZAMANDA, ÖLKƏMİZİ GÜCLƏNDİRİR”




“Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası nəticəsində bölgələrdə çox böyük, genişmiqyaslı quruculuq işləri aparılmışdır”.

Bunu Azərbaycan Prezidenti İlham Əliyev aprelin 18-də Salyan rayonunda Azərbaycan Televiziyasına müsahibəsində deyib.

Bu işlərin davam etdirildiyini və hazırda 4-cü Dövlət Proqramının icra olunduğunu vurğulayan Azərbaycan Prezidenti bildirib: **“Mənim də bölgələrə səfərlərim həm nəzarət üçün bir vasitədir, yəni, verdiyim tapşırıqlar necə yerinə yetirilir, eyni zamanda, növbəti tapşırıqlar, tövsiyələr verilir ki, bölgələrdə bizim bəyan etdiyimiz bütün hədəflər təmin edilsin, ilk növbədə, insanların rifah halının yaxşılaşdırılması, infrastruktur obyektlərinin yaradılması, o cümlədən sosial infrastrukturla bağlı işlərin aparılması.**

**Bir sözlə, Azərbaycan bölgələrinin ümumi inkişafı həm sosial xarakter daşıyır, eyni zamanda, ölkəmizi gücləndirir”.**

# “ASAN XİDMƏT” BİZİM İNTELLEKTUAL MƏHSULUMUZUN BİR NÜMUNƏSİDİR”

“ASAN xidmət” sistemi bu gün dünyada artıq Azərbaycan brendi kimi tanınır. “ASAN xidmət” mərkəzlərində göstərilən xidmətlər əhali tərəfindən rəğbətlə qarşılanır və bəyənmə əmsalı 99,8 faizdir”.

Bunu Prezident İlham Əliyev aprelin 18-də Salyan rayonunda “ASAN xidmət” mərkəzinin açılış mərasimindən sonra Azərbaycan Televiziyasına müsahibəsində deyib.

Salyan rayonunda açılışı olan “ASAN xidmət” mərkəzinin sayca 25-ci mərkəz olduğunu vurğulayan dövlətimizin başçısı bildirib: “Dünyada artıq ASAN modelini bir neçə ölkə tətbiq edir. Biz bu ölkələrə metodik dəstək veririk. Son illər ərzində, yəni, 10 il ərzində 61 milyon müraciət olmuşdur. Yəni, bu xidmətin yaradılması faktiki olaraq ictimai xidmətlər sahəsində bir inqilab idi, bir dönüş nöqtəsi idi və hazırda 300-dən çox xidmət göstərilir. Beləliklə, “ASAN xidmət” bizim, o cümlədən intellektual məhsulumuzun bir nümunəsidir və eyni zamanda, biz artıq intellektual məhsul ixrac edirik”.

# “BUGÜNKÜ AZƏRBAYCAN ORDUSU ZƏFƏR ÇALMIŞ EYNİ AZƏRBAYCAN ORDUSUNDAN QAT-QAT GÜCLÜDÜR”

“Müharibədən sonrakı iki il yarım ərzində də ordu quruculuğu məsələlərinə çox böyük diqqət göstərilib”.

Bu barədə Prezident İlham Əliyev aprelin 18-də Salyan rayonunda Azərbaycan Televiziyasına müsahibəsində deyib. Dövlətimizin başçısı tam əminliklə deyib ki, bugünkü Azərbaycan Ordusu 2020-ci ildə Zəfər çalmış eyni Azərbaycan Ordusundan qat-qat güclüdür. “Ancaq, eyni zamanda, yenə də demək istəyirəm, biz hər bir vəziyyətə hər an hazır olmalıyıq”, - deyə Azərbaycan Prezidenti əlavə edib.

# “QARABAĞDA VƏ ŞƏRQİ ZƏNGƏZURDA BÜTÜN LAYİHƏLƏR PLAN ÜZRƏ GEDİR”

“Prezident İlham Əliyev aprelin 18-də Salyan rayonunda Azərbaycan Televiziyasına müsahibəsində Qarabağda və Şərqi Zəngəzurda gedən işlərə də toxunub”.

Dövlətimizin başçısı Qarabağda və Şərqi Zəngəzurda gedən işlərlə bağlı müntəzəm olaraq ictimaiyyətə məlumat verildiyini də bildirib.

Prezident İlham Əliyev deyib: “İnfrastruktur layihələrinin icrası, dəmir yolları, avtomobil yolları, elektrik enerjisi ilə bağlı olan təchizat, su təchizatı, meliorativ tədbirlərlə bağlı olan bütün layihələr plan üzrə gedir. İki hava limanı artıq fəaliyyətdədir, üçüncü hava limanının inşası davam edir”.

# “BÜDCƏYƏ ƏLAVƏLƏR ƏN AZI 3 MİLYARD MANAT SƏVİYYƏSİNDƏ OLACAQ”

“Bütövlükdə, hesab edirəm ki, büdcəyə əlavələr ən azı 3 milyard manat səviyyəsində olacaq. Bunun əsas hissəsi Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasında istifadə ediləcək”.

Bunu Prezident İlham Əliyev aprelin 18-də Salyan rayonunda Azərbaycan Televiziyasına müsahibəsində deyib.

**“İkinci yerdə bizim hərbi xərclərimiz olacaq. Çünki buna da böyük ehtiyac var. Dünyada gedən prosesləri hər kəs izləyir. Dünyada təhdidlər artır, təhlükələr artır. Düzdür, biz İkinci Qarabağ müharibəsində düşmənin başını əzərək möhtəşəm Qələbə əldə etmişik. Ancaq Ermənistanda revanşist qüvvələr yenə baş qaldırır, biz istənilən vəziyyətə hazır olmalıyıq və elə bir ordu yaratmalıyıq ki, dünya miqyasında nümunəvi olsun və ən güclü ordulardan biri olsun. Bu gün də Azərbaycan Ordusu güclüdür”**, - deyə dövlətimizin başçısı vurğulayıb.

# “YAXIN ZAMANLARDA ŞUŞADA İKİNCİ BÖYÜK YAŞAYIŞ KOMPLEKSİNİN TƏMƏLİ QOYULACAQ”

“Şuşa şəhərində birinci yaşayış kompleksi uğurla inşa edilir. Biz ikinci böyük yaşayış kompleksinin, yəni, bir çox evlərdən ibarət layihənin təməlini yaxın zamanlarda qoyacağıq”.

Bu barədə Prezident İlham Əliyev aprelin 18-də Salyan rayonunda Azərbaycan Televiziyasına müsahibəsində bildirib. Dövlətimizin başçısı, həmçinin deyib ki, Ağdam, Füzuli, Zəngilan şəhərlərində yaşayış binalarının inşası plan üzrə gedir, Kəlbəcər və Cəbrayıl şəhərlərində isə buna hazırlıq işləri görülür.

# “ERMƏNİSTAN QƏBUL EDİB Kİ, İKİ ÖLKƏ ARASINDA SƏRHƏDLƏR ALMA-ATA BƏYANNAMƏSİ ƏSASINDA HƏLL OLUNMALIDIR”

“Sülh müqaviləsinin imzalanması ilə əlaqədar Ermənistan tərəfinin mövqeyində son iki il ərzində müxtəlif ziqzaqlar olub, yəni, müxtəlif dəyişikliklər olub”.

Bu fikri Prezident İlham Əliyev aprelin 18-də Salyan rayonunda Azərbaycan Televiziyasına müsahibəsində səsləndirib.

Dövlətimizin başçısı deyib ki, Ermənistan da prinsip etibarilə bizim yanaşma ilə razıdır. Çünki başqa variant da yoxdur. Məhz buna görə keçən ilin oktyabr ayında Praqa və Soçi görüşlərində Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini rəsmən qəbul edib. Yəni qəbul edib ki, Azərbaycan ilə Ermənistan arasında sərhədlər - 1991-ci ilin Alma-Ata Bəyannaməsi əsasında həll olunmalıdır.

# “ERMƏNİSTAN ARTIQ RƏSMƏN BƏYAN ETMƏLİDİR Kİ, QARABAĞ AZƏRBAYCANDIR”

“Vaxtilə “Qarabağ Ermənistandır və nöqtə” deyən Ermənistan bu gün “Qarabağ Azərbaycandır və nida” sözlərimizi təkrar etməlidir”.

Bu barədə Prezident İlham Əliyev aprelin 18-də Salyan rayonunda Azərbaycan Televiziyasına müsahibəsində bildirib.

**“Çünki əgər “A” deyibsə “B” də deməlidir. Alma-Ata Bəyannaməsini əsas götürüb bunun üzərində sülh müqaviləsinə hazır olduğunu göstərən Ermənistan artıq rəsmən bəyan etməlidir ki, Qarabağ Azərbaycandır”**, – deyə dövlətimizin başçısı qeyd edib.

# “BİZİM SƏBRİMİZLƏ OYNAMAQ OLMAZ”

“Hazırda özləri üçün qondarma adlar uyduran separatçılar, - biri özünü prezident adlandırır, biri özünü nazir adlandırır, biri nə bilim nə parlament sədri adlandırır, - bu təlxəklər toplusu, nəhayət bilməlidir ki, bizim səbrimizlə oynamaq olmaz”.

Bu fikirləri Prezident İlham Əliyev aprelin 18-də Salyan rayonunda Azərbaycan Televiziyasına müsahibəsində söyləyib.

Hazırda Qarabağda yaşayan erməni əhalisinin əksəriyyətinin Azərbaycan vətəndaşlığını qəbul etməyə hazır olduğuna əminliyini bildirən dövlətimizin başçısı deyib: **“Sadəcə olaraq, bu zalılər, bu yırtıcı heyvanlar, separatçılar qoymurlar. Qoymurlar ki, bu insanlar rahat yaşasınlar, 30 il bunları girov kimi saxlayıblar. Ona görə mənim mövqeyim bundan ibarətdir, bunu hər kəs eşitsin, həm Ermənistan rəhbərliyi, həm bu gün onların arxasında dayanan qüvvələr, bizim iradəmizə heç kim təsir edə bilməz. Biz bunu sübut etmişik, müharibə zamanı və müharibədən sonra. Lazım olarsa, bir də sübut edərik istənilən formada”.**

“Bu gün Azərbaycan Bayrağı Qarabağda dalğalanır. Ağdamda, Füzulidə, Cəbrayılda, Qubadlıda, Zəngilanda, Kəlbəcərdə, Laçında, Şuşada, Hadrutda, Talışda, Suqovuşanda və neçə-neçə kənddə, yüzlərlə kənddə Azərbaycan Bayrağı dalğalanır. Bu gün Azərbaycan Bayrağı Zəngəzur dağlarında dalğalanır, onu unutmasınlar. O bayrağa onlar yaxınlaşa bilər? O insanabənzər məxluq və onun kimiləri o bayraqlara yaxınlaşa bilər? O bayrağa uzaqdan baxmağa da qorxarlar”, - deyə dövlətimizin başçısı vurğulayıb.

# “AZƏRBAYCAN BAYRAĞININ YANDIRILMASI ERMƏNİ HÖKUMƏTİNİN NÖVBƏTİ ÇİRKİN ƏMƏLİDİR”

“Ermənistanda keçirilən Avropa çempionatında Azərbaycanın Dövlət Bayrağının yandırılması erməni hökumətinin növbəti çirkin əməlidir”. Bu barədə Prezident İlham Əliyev aprelin 18-də Salyan rayonunda Azərbaycan Televiziyasına müsahibəsində bildirib.

**“Bu, təsadüfən baş verməyib, hansısa bir fərdin əməli deyil. Bu, Ermənistan hökumətinin növbəti çirkin əməlidir. Bunu deməyə əsas verən bir çox səbəblər var. Birincisi, bu hadisəni törədən insanabənzər məxluq Ermənistan hakim dairələrinin yüksək səviyyəli şəxsləri ilə birbaşa təmasdadır. İkincisi, bu məxluqa heç bir cəza verilmədi, əksinə, Ermənistanda onu qəhrəmanlaşdırırlar”**, - deyə dövlətimizin başçısı qeyd edib. Azərbaycan Prezidenti deyib ki, həmin adama qarşı heç bir cəza tədbiri, heç cərimə də tətbiq olunmayıb. Ermənistanın siyasi rəhbərliyinin gözü önündə belə bir rəzil hadisə baş verir və buna heç bir reaksiya verilmir. Bu onu göstərir ki, Ermənistan hakimiyyəti, hökuməti, dövləti bu çirkin əməlin müəllifidir.

# “AZƏRBAYCAN YƏHUDİ İCMALARINA HƏMİŞƏ HÖRMƏTLƏ YANAŞAN ÖLKƏDİR”

“Azərbaycan yəhudi icmalarına həmişə hörmətlə yanaşan ölkədir və xalqlarımız arasında əlaqə dərindir”. Bu barədə İsrailin xarici işlər naziri Eli Kohen tviter hesabında yazıb. Nazir paylaşımda bildirib: **“Bu gün mən Azərbaycanın paytaxtı Bakıda sinaqoqda oldum, yəhudi icmasının üzvləri ilə görüşdüm. Münasibətlərdə yeni mərhələnin rəmzi olan Azərbaycanın İsraildə səfirliyinin açılmasından məmnunam və icma üzvlərinə İsrailin hər zaman onların evi olacağını söylədim”.**



# Azərbaycanı dünyaya daha yaxından tanıdan qlobal platforma

(əvvəli ötən sayımızda)

**Əvvəlkilərdən fərqli olaraq VIII Qlobal Bakı Forumu Azərbaycanın Zəfərini dünyaya bəyan etdi**

Bu, həm də Azərbaycanın Vətən müharibəsindəki qələbəsindən sonra keçirilən ilk Forum idi. Qeyd etmək lazımdır ki, əvvəlki forumlarda Prezident İlham Əliyevin diqqətə çatdırdığı, toxunduğu prioritet məsələlərdən biri Ermənistanın işğalçılıq siyasəti ilə bağlı olurdu. Bu mənada Forum Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mükəmməl tribuna rolunu oynamışdı. VIII Qlobal Bakı Forumunda isə Prezident İlham Əliyev 44 günlük müharibənin nəticələri və regionda yaranan reallıqlar barədə məlumat verərək, bir daha beynəlxalq ictimaiyyəti məlumatlandırdı. Respublikamızda COVID-19-a qarşı mübarizə, eyni zamanda Azərbaycanın bu mübarizədə beynəlxalq həmrəyliyə verdiyi töhfələr barədə danışan Prezident İlham Əliyev daha sonra dedi: *"Toxunmaq istədiyim digər bir mövzu, Birinci Bakı Qlobal Forumundan başlayaraq hər yeddi Forumda haqqında danışdığım mövzudur-Ermənistan-Azərbaycan münaqişəsi. Bu gün isə demək istəyirəm ki, münaqişə həll edilib. Azərbaycan özü münaqişəni həll etdi. Azərbaycan 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələri özü yerinə yetirdi. Təəssüflər olsun ki, həmin qətnamələr 27 il ərzində kağız üzərində qaldı və özünümüdafiə hüququnu ehtiva edən BMT Nizamnaməsinin 51-ci maddəsindən istifadə edən Azərbaycan özü ərazi bütövlüyünü bərpa etməsə idi, həmin qətnamələr növbəti 27 il ərzində də kağız üzərində qalacaqdı. Azərbaycan beynəlxalq hüquqi çərçivəni də istifadə etdi, çünki yalnız BMT Təhlükəsizlik Şurası deyil, digər aparıcı beynəlxalq təsisatlar Azərbaycanın ərazilərinin işğalı ilə bağlı bənzər qətnamə və qərarlar qəbul edib. BMT-nin Baş Assambleyası, ATƏT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və Avropa Şurasının Parlament Assambleyası münaqişə ilə bağlı müxtəlif dövrlərdə buna bənzər qərar və qətnamələr qəbul edib ki, ötən il ərazilərimizi azad edərkən gördüyümüz işlər buna tam uyğun idi".*

2022-ci ilin iyun ayında keçirilən "Qlobal dünya nizamına təhdidlər" mövzusunda IX Qlobal Bakı Forumunda dünyada təhlükəsizliyin və sülhün təmin olunması üçün perspektivlər, enerji təhlükəsizliyinə yaranan təhdidlərin həlli yolları, həssas bölgələrdə sülh, əməkdaşlıq və inteqrasiya, qloballaşan bəşəriyyətdə artan ədalətsizliklər, yoxsulluğun qarşısının alınması üçün qida və kənd təsərrüfatı sektorunun transformasiyası kimi mühüm mövzularda müzakirələr aparıldı. Təhlükəsizliklə bağlı yaranan problemlər beynəlxalq arenada və qlobal gündəlikdə duran əsas məsələlərdən biri kimi son dövrlər daha da aktuallaşmışdır. IX Qlobal Bakı Forumunda çıxışı zamanı bu barədə danışan Prezident İlham Əliyev bildirdi ki, Qlobal Bakı Forumu bunun üçün mükəmməl platforma olaraq çıxış edir: *"Bu Forum müxtəlif tərəflərin fikirlərini toplayan inklüziv bir Forumdur və hesab edirəm ki, bu, belə də olmalıdır. Çünki biz hamımız dünyanı daha da təhlükəsiz etmək üçün bir-birimizlə daha yaxından çalışmalıyıq".*







IX Qlobal Bakı Forumunda iştirak etmək üçün 53 ölkədən 400-ə qədər nümayəndənin, o cümlədən dövlət və hökumət başçılarının, sabiq dövlət və hökumət başçılarının Azərbaycana gəlməsi bu tədbirin dünyada sülhə böyük töhfələr verən mühüm siyasi platforma olduğunu bir daha nümayiş etdirdi.

Prezident İlham Əliyevin forumda diqqətə çatdırdığı həqiqətlərdən biri ATƏT-in Minsk qrupu barədə oldu. Qeyd edək ki, Minsk qrupu öz fəaliyyətində beynəlxalq hüquqa əsaslanırdı. Lakin bu missiya heç vaxt öz mandatına uyğun fəaliyyət göstərə, Dağlıq Qarabağ münaqişənin sülh yolu ilə həllinə nail ola bilmədi. Minsk qrupunun həll etməli olduğu problemi 2020-ci ilin Vətən müharibəsində Azərbaycan hərbi yolla həll etdi. Elə buna görə də hələ 2020-ci ilin dekabrında Minsk qrupunun Fransadan və ABŞ-dan olan həmsədrlərini qəbul edən Prezident İlham Əliyev Minsk qrupunun 28 il ərzində problemin həllində heç bir rol oynamadığını birbaşa onların özlərinin diqqətinə çatdırmışdı.

Daha Minsk qrupunun adı çəkilmir. ABŞ və Fransanın Minsk qrupu formatı çərçivəsində Rusiya ilə əməkdaşlığı dayanıb. Fransanın bu qrupu diriltmək cəhdləri isə əbəsdir. Forumda bu barədə danışan Prezident İlham Əliyev bildirdi ki, xüsusilə Rusiya-Ukrayna müharibəsindən sonra aydındır ki, Minsk qrupunun üç həmsədr ölkəsi bir araya gələ bilməz və biz bununla bağlı artıq mesajlar almışıq – bu qrupun həmsədrlik institutu fəaliyyət göstərməyəcək: *"Yəni, Minsk qrupu funksiyasını itirib. Bunu yenidən dirçəltmək cəhdləri də səmərəsizdir. Düşünürəm ki, bunun ən yaxşı yolu Minsk qrupuna əlvida deməkdir. Təşəkkür edirik və əlvida deyil, yalnız əlvida demək olar. Yəni, 30 il kifayətdir, təqaüdə çıxmaq vaxtıdır".*

IX Qlobal Bakı Forumu maraqlı və səmərəli diskussiyalarla yadda qaldı. 50-dən artıq ölkədən nümayəndə heyətinin iştirak etməsi və aparılan müzakirələr bu platformanın vacibliyini bir daha təsdiq etdi.

**Azərbaycan Prezidentinin verdiyi mesajlar**

2023-cü ilin martında keçirilən X Qlobal Bakı Forumu **"Dünya bu gün: Çağırışlar və ümidlər"** mövzusuna həsr olunmuşdu. Forum çərçivəsində keçirilən on bir panel iclasında dünyanı narahat edən aktual məsələlər və onların həlli yolları müzakirə edildi. Budəfəki Forumda müasir dünyanın çağırışlarından irəli gələrək, yeni dünya nizamına təhdid yaradan amillərə, o cümlədən təhlükəsizlik məsələsinə və sülhün təmin olunması üçün perspektivlərə, dünyada dayanıqlılığın qurulmasına, onun qlobal sülhə təsirinə nəzər salındı, qarşıda duran çağırışların həlli yolları müzakirə olundu. Eyni zamanda bu iclaslarda dünyanı narahat edən münaqişələrə, meqatəhdidlərə, o cümlədən iqlim, qida və nüvə təhlükəsizliyi məsələlərinə toxunuldu, postpandemiya dövründə görüləcək işlərlə bağlı fikir mübadiləsi aparıldı. Forumda çıxış edən ölkə başçısı İlham Əliyev də yeni reallıqlara uyğun olaraq irəli sürdüyü çağırışları, sülh təkliflərini təkcə Azərbaycan, Cənubi Qafqaz üçün deyil, bütün dünya üçün səsləndirdi.

Prezident İlham Əliyev münaqişələrin yaranmasından, onun həlli yollarından danışaraq, diqqəti Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi hərbi təcavüzə yönəltdi və işğal nəticəsində Azərbaycanda humanitar fəlakətin yarandığını, bir milyondan artıq azərbaycanlının öz ölkəsində qaçqın və məcburi köçkünə çevrildiyini, rəsmi İrəvanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti apardığını vurğuladı. Dövlətimizin başçısı, həmçinin münaqişəni sülhlə aradan qaldırmağı və erməni qoşunlarının Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə Ermənistan hakimiyyətinin məhəl qoymamasını, beynəlxalq hüquqa nümayişkaranə şəkildə hörmətsizlik etdiyini də diqqətə çatdırdı. Prezident İlham Əliyev bununla yanaşı, çıxışında problemi həll etməyə cavabdeh olan ATƏT-in keçmiş Minsk qrupunun da heç bir nəticəyə nail ola bilmədiyini söylədi. Qarşı tərəf bizə başqa seçim imkanı qoymadı. Belə olduğu təqdirdə, beynəlxalq hüququn verdiyi imkanlardan, legitim hüququmuzdan istifadə etməklə ərazilərimizi hərbi yolla azad etdik.

Prezident İlham Əliyev çıxışında o mesajı verdi ki, hansı coğrafiyada baş verməsindən asılı olmayaraq, ərazi bütövlüyünün pozulmasının və separatçılıq meyillərinin qəbuledilməz olduğu əvvəlcədən bilinməli, onlara qarşı ortaq beynəlxalq münasibət sərgilənməlidir. Bu xüsusda Azərbaycan Prezidenti nüfuzlu auditoriyanın diqqətinə bir daha onu da çatdırdı ki, Ermənistanın ölkəmizə qarşı üç onillik ərzində davam edən işğalçılıq siyasətinə, azərbaycanlılara qarşı apardığı etnik təmizləmə cinayətinə, məhz işğal dövründə şəhər və kəndlərimizi yerlə-yeksan etməsinə baxmayaraq, Azərbaycan savaş meydanında əldə etdiyi tarixi Zəfərdən sonra Ermənistana sülh müqaviləsini imzalamağı təklif edib. Ölkəmizin sülh təklifi yenə də ərazi bütövlüyünün toxunulmazlığını və suverenliyə hörməti ehtiva edən beş təməl prinsipə söykənir. Prezident İlham Əliyev açıq mətnlə bildirdi ki, Ermənistan hər dəfə bu təklifə hazır olduğunu bildirsə də, təəssüf ki, bu, yalnız görüntü xarakteri daşıyır. Çünki Ermənistan daha çox onun üçün vacib olan həyat əhəmiyyətli bu qərarı qəbul etməkdə sərbəst və müstəqil deyil. Elə bu səbəbdən dövlətimizin başçısı nüfuzlu qonaqların və dünya birliyinin diqqətinə bu acı reallığı da çatdırdı: *"Ümid edirik ki, vasitəçiliyə cəhd göstərən beynəlxalq iştirakçılar Ermənistanı şansı əldən buraxmamaqda dilə gətirəcəklər. Onlar müstəqil ölkə olmaq şansını itiriblər. Onlar tamamilə asılı olan, digər ölkənin və hazırda, ola bilsin, digər ölkələrin müstəmləkəsinə çeviriliblər. Beləliklə, onlar bizə qarşı təcavüz səbəbindən, həqiqətən, müstəqil olmaq, öz gələcəyini qurmaq şansını əldən buraxıblar".*

**Bakıdakı müzakirələr dünya gündəmində yer alan ən mühüm problemlərin araşdırılmasına və həllinə töhfə verir**

Bu Forumun ölkəmizdə keçirilməsi beynəlxalq siyasi ictimaiyyətin respublikamıza olan dərin etimadının, Azərbaycanın beynəlxalq siyasi münasibətlər sistemindəki roluna, habelə siyasi və humanitar dialoqun inkişafı istiqamətində irəli sürdüyü təşəbbüslərə və real töhfələrinə verilən qiymətin təcəssümüdür. 2013-cü ildən bəri keçirilən Forum artıq Davos Forumu, Münxen Təhlükəsizlik Konfransı kimi müasir dünyamızın aktual problemlərinin müzakirə olunduğu, perspektivi müəyyən edən ideyaların yarandığı və təşəbbüslərin irəli sürüldüyü, gələcəyə nəzər salmağa imkan verən beynəlxalq diskussiya platforması statusunu alıb. Ona görə bu gün Qlobal Bakı Forumu öz nüfuzuna görə dünyanın aparıcı beynəlxalq platformalarını kölgədə qoyub. Bakı Qlobal Forumunun iştirakçılarının təmsilçilik səviyyəsi və intellektual potensialı aparıcı beynəlxalq konfranslara uyğundur. Forum ilk dəfə keçirilən də tədbirdə təxminən 20-yə yaxın ölkədən nümayəndə iştirak edirdi. Sonuncu Forumda isə iştirak edən dövlətlərin sayı 60-dan çoxdur. Göründüyü kimi, son 10 il ərzində Bakıda keçirilən qlobal forumlar diqqəti o qədər çəkib ki, iştirakçı dövlətlərin sayı 3 dəfədən çox artıb. Ötən dövrdə Bakı Forumu dünya cəmiyyətinin üzləşdiyi həssas mövzuların müzakirə olunduğu platforma kimi nüfuz qazanıb. Forumu digər platformalardan fərqləndirən əsas cəhətlərdən biri də coğrafi cəhətdən əhatəli olmasıdır.

Dünyanın müxtəlif yerlərindən gələn qonaqların fikir mübadiləsi üçün Bakını seçmələri Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasətin məntiqi nəticəsidir. Məhz buna görə də tədbirdə iştirak edən dünya şöhrətli xadimlər bu forumun başqa ölkələrdə baş verənləri öyrənmək baxımından əvəzedilməz platforma olduğunu etiraf edirlər. Şərq və Qərb ölkələrinin tanınmış nümayəndələrinin, sabiq dövlət və hökumət başçılarının bir araya gələrək, qlobal məsələlərin müzakirəsində fikirlərini açıq şəkildə bildirmələri tədbirin xüsusi əhəmiyyət kəsb etməsindən xəbər verir.

Qlobal Bakı Forumunda aparılan müzakirələr və fikir mübadilələri dünya gündəmində yer alan ən mühüm problemlərin araşdırılmasına və həllinə töhfə verir. Ötən forumların nəticələri bunu söyləməyə əsas verir. Müzakirələr nəticəsində hasil olan nəticəyə uyğun dünyaya yeni mesajların verilməsi faydalı olduğundan bir daha belə bir dialoq platformasına ehtiyacın olduğu ortaya çıxır.

**Ziyad SƏMƏDZADƏ,
akademik,
Milli Məclisin deputatı**

# İsrail Azərbaycanla əlaqələrin genişlənməsinə önəm verir



Azərbaycan Respublikası Hökuməti ilə İsrail Hökuməti arasında Birgə Komissiyanın həmsədrləri - Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və İsrailin xarici işlər naziri Eli Kohen arasında görüş keçirilib.

İqtisadiyyat Nazirliyindən bildirilib ki, Mikayıl Cabbarov Azərbaycanla İsrail arasında yüksək səviyyəli əlaqələri vurğulayıb. Diqqətə çatdırılıb ki, ölkəmizin İsraildə səfirliyinin açılması ikitərəfli münasibətlərin yeni mərhələyə yüksəldiyini göstərir. Azərbaycan Respublikası Hökuməti ilə İsrail Hökuməti arasında Birgə Komissiya, həmçinin Azərbaycanın İsraildəki Ticarət nümayəndəliyi ölkələrimiz arasında tərəfdaşlığın inkişafı üçün əhəmiyyətli platformalardır. Ölkələrimiz iqtisadi-ticarət əməkdaşlığının gücləndirilməsi istiqamətində işləri davam etdirir. İsrail Azərbaycanın əsas ticarət tərəfdaşları sırasındadır. İsraillə qarşılıqlı investisiya, həmçinin energetika, kənd təsərrüfatı, İT, innovasiya, əczaçılıq, turizm və s. sahələr üzrə səmərəli əməkdaşlıq mövcuddur. Ötən il işgüzar dairələrimiz arasında əlaqələrin genişləndirilməsi istiqamətində fəal iş aparılıb. İsrail şirkətləri ilə birgə investisiya layihələrinin reallaşdırılması üzrə işlər davam edir. Həmçinin sənaye zonaları və aqroparklar, su təsərrüfatı və digər sahələr üzrə də tərəfdaşlıq olunur. İsraillə innovativ inkişaf və rəqəmsal iqtisadiyyat sahəsində əməkdaşlıq Azərbaycan üçün xüsusi önəm daşıyır.

İqtisadiyyat naziri Azərbaycanın əlverişli işgüzar mühiti, azad edilmiş ərazilərimizdə həyata keçirilən quruculuq layihələri, sənaye zonalarının fəaliyyəti, Ələt Azad İqtisadi Zonasının imkanları barədə məlumat verib.

İsrail Dövlətinin xarici işlər naziri Eli Kohen ölkəsinin Azərbaycanla əlaqələrin genişlənməsinə önəm verdiyini, İsrail şirkətlərinin müxtəlif sahələrdə tərəfdaşlığa maraq göstərdiyini qeyd edib, əməkdaşlığın gücləndirilməsi üçün geniş imkanların olduğunu vurğulayıb.

# Azərbaycan yüksək rəqəmsallaşma səviyyəsinə görə birinci pilləyə yüksəlib

Azərbaycan Dünya Bankının hazırladığı "GovTech Yetkinliyi İndeksi"nin (GovTech Maturity İndex - GTMI) 2022-ci il üzrə hesabatında yüksək nəticələr əldə edib. Belə ki, 198 ölkəni qiymətləndirən indeksdə Azərbaycan yüksək rəqəmsallaşma səviyyəsinə görə birinci pilləyə qalxaraq, yalnız 35 faiz ölkənin daxil ola bildiyi 69 ölkədən ibarət qrupda yer alıb.

Azərbaycan rəqəmsallaşma sahəsində hökumət sistemlərinin təkmilləşdirilməsi, vətəndaşlara təqdim olunan xidmətlər paketinin genişləndirilməsi, vətəndaş iştirakının təmin olunması və rəqəmsal texnologiyalardan istifadənin təşviqi üzrə yüksək qiymətləndirilib.

Bu qrupa, həmçinin Almaniya, Rusiya, Sinqapur, Birləşmiş Krallıq, ABŞ və digər ölkələr də daxil edilib. İ.Vaqifzadənin sözlərinə görə, Prezident İlham Əliyevin tapşırığı ilə ölkədə rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi, həmçinin müasir texnoloji sahələri dəstəkləyən rəqəmsal cəmiyyətin inkişafı sahəsində aparılan islahatlar ölkəmizin dünya dövlətləri arasında mövqeyinin yüksəldilməsinə xidmət edib.




İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) operatoru olduğu Rəqəmsal Ticarət Qovşağının (DTH) rəhbəri İsmət Vaqifzadə AZƏRTAC-a bildirib ki, hesabatda Azərbaycanın hökumət xidmətlərinin göstərilməsində rəqəmsal texnologiya və innovativ həllərdən istifadə etməsi xüsusi vurğulanır. Hökumətin rəqəmsallaşması sahəsinin əsas aspektlərini ölçən "GovTech Yetkinlik İndeksi"nə görə,

# Kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi 100,8 faiz olub

Bu ilin mart ayında əvvəlki ayla müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi 100,8 faiz, o cümlədən bitkiçilik məhsulları üzrə 100,5 faiz, heyvandarlıq məhsulları üzrə 101,1 faiz təşkil edib. Dövlət Statistika Komitəsindən bildirilib ki, cari ilin mart ayında əvvəlki ayla müqayisədə meşə təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi 100,0 faiz, balıq və sair balıqçılıq məhsullarının istehsalçı qiymət indeksi 100,8 faiz təşkil edib.

# Kənd təsərrüfatının istehsalı 3,4 faiz artıb

Cari ilin yanvar-mart ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 1 milyard 340,1 milyon manat təşkil edib. Bunun da 1 milyard 264,1 milyon manatı heyvandarlıq, 76 milyon manatı bitkiçilik məhsullarının payına düşür.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 3,4 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,5 faiz, bitkiçilik məhsulları üzrə 1,3 faiz artıb.



# "Azərkosmos" ötən ili 1,4 milyon xalis mənfəətlə başa vurub

Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") publik hüquqi şəxsi 2022-ci ilin yekunlarına dair maliyyə nəticələrini açıqlayıb.




"Azərkosmos"dan bildirilib ki, maliyyə nəticələrini əks etdirən hesabata əsasən qurum 2022-ci ili mənfəətlə başa vurub. Agentliyin ümumi mənfəəti 4,4 milyon manat, xalis mənfəəti isə 1,4 milyon manat olub.

Ümumilikdə, "Azərkosmos"un gəlirlərinin əsas hissəsi peyk xidmətlərinin ixracından formalaşır. "Azərkosmos" dövlət və qeyri-dövlət ixracatçı subyektləri arasında xidmət sektorunda ixrac həcminə görə ən yüksək nəticə ilə ilk sıralardadır. 2022-ci ildə agentliyin "Azerspace-1", "Azerspace-2" və "Azersky" peykləri üzrə ixrac portfelini əsasən Böyük Britaniya, Fransa, Lüksemburq, Birləşmiş Ərəb Əmirlikləri və Pakistan kimi ölkələrin qabaqcıl şirkətləri təşkil edib. Bu isə, öz növbəsində, bir tərəfdən "Azərkosmos"un likvidliyinin güclənməsi, digər tərəfdən isə ölkəyə stabil xarici valyuta axını deməkdir.

"Azərkosmos"un ümumi öhdəlikləri 2022-ci ilin sonunda 2021-ci ilə nisbətdə 159,7 milyon manat və ya 30 faiz azalaraq 362,1 milyon manata düşüb.

# ASCO-da "Shandong Port Group"un nümayəndələri ilə görüş olub

"Shandong Port Group"un İdarə Heyətinin sədri və baş direktoru Li Fenqlinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də (ASCO) görüş keçirilib.



ASCO-dan bildirilib ki, ASCO-nun rəhbəri Rauf Vəliyev əvvəlcə qonaqlara qurumun 165 illik zəngin tarixi və fəaliyyəti barədə ətraflı məlumat verib. O, son 15 ildə Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən nəqliyyat-logistika layihələrindən danışıb. O, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı Gəmiqayırma Zavodu, ASCO-nun donanmasının modernləşdirilməsi, Bakı-Tbilisi-Qars dəmir yolu bağlantısından, eləcə də hava və quru yol nəqliyyatında görülən digər mühüm işlərdən söz açıb. Görüşdə Azərbaycanla Çin arasında siyasi-iqtisadi sahədə uğurlu əməkdaşlığın Orta Dəhliz üzərindən daşınan yük həcminin də artmasına səbəb olacağı vurğulanıb.

# "AzerGold" QSC-nin satış göstəriciləri artıb

Dövlət ixracatçı subyektləri sırasında lider mövqelərdə qərarlaşan "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) 2023-cü ilin birinci rübündə satış göstəriciləri artıb.




QSC-dən bildirilib ki, sözügedən dövr ərzində beynəlxalq və yerli bazarlarda 8.3 min unsiya qızıl, 33.5 min unsiya gümüşün satışını həyata keçirən Səhmdar Cəmiyyət satış əməliyyatları nəticəsində, ümumilikdə 27.9 milyon manat vəsait əldə edib. Bu, 2022-ci ilin eyni dövrü ilə müqayisədə qızıl satışı həcmində 14 faiz, gümüş satışı həcmində 79 faiz, satış gəlirlərində isə 13,9 faiz artım deməkdir.

# Vergi orqanlarına şikayətlərin sayı 17,8 faiz azalıb

Cari ilin birinci rübü ərzində ümumilikdə vergi orqanlarına 78 min 398 müraciət daxil olub, bunların 93 faizini ərizələr, 6,9 faizini şikayətlər, 0,1 faizini isə müxtəlif təkliflər təşkil edib.

Dövlət Vergi Xidmətindən verilən məlumata görə, müraciətlərin 88,3 faizinin baxılması həmin dövrdə başa çatdırılıb, 11,7 faizi hazırda icradadır. Baxılmış müraciətlərin 66,6 faizi həll olunub, 30,5 faizi barədə izahat verilib, digərləri ilə bağlı müvafiq qərarlar qəbul edilib.

Şikayətlərin faktiki sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 17,8 faiz azalıb. Həll edilmiş faktiki şikayətlərin böyük əksəriyyəti kameral vergi yoxlamaları, maliyyə sanksiyalarının silinməsi, digərləri vergi mükəlləfiyyətləri, vergiödəyicisinin qeydiyyatı, vergi borcları və s. məsələlərlə bağlı olub.

Yanvar-mart ayları ərzində Dövlət Vergi Xidmətinin aparatında müvafiq vəzifəli şəxslər tərəfindən ümumilikdə 96 vətəndaşın qəbulu təşkil edilib. Qəbul zamanı hər bir vətəndaşın müraciətinə fərdi qaydada yanaşılıb, onların qanuni tələblərinin müsbət həlli üçün lazımi tədbirlər görülüb, həlli imkan xaricində olan məsələlərlə bağlı qanuna müvafiq izahatlar verilib.

# Aqrar sektorda 13.5 milyon manat güzəştli kredit verilib

Bu ilin yanvar-fevral ayları ərzində Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA) tərəfindən 1172 kənd təsərrüfatı texnikasının satışı maliyyələşdirilib.

Hesabat dövründə aqrar sektorda fəaliyyət göstərən 629 fiziki və hüquqi şəxsə 13,5 milyon manat məbləğində güzəştli kredit verilib ki, bunun 10,9 milyon manatı texnika və avadanlıq təyinatlı kreditlər, 2,5 milyon manatı isə mikrokreditlərdir.

Cari ilin ilk rübündə AKİA tərəfindən 938 baş damazlıq heyvanın (62 baş iribuynuzlu, 876 baş xırdabuynuzlu) alışına 570,7 min manat, habelə kənd təsərrüfatı texnikası və avadanlıqlarının alışı üçün 16,8 milyon manat məbləğində güzəştli vəsait ayrılıb.



# Əziz ana – Zərifə xanım Əliyeva

***O böyük və şərəfli ömür yolu keçmiş, həyatı, əməlləri ilə başqalarının da ömrünü işıqlandırmışdı. Bu dünyaya insanlara nur paylamaq, xeyirxahlıq etmək üçün gələn görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın 62 illik ömür yolu nəsillərə örnəkdir. Zərifə xanım çağdaş, güclü Azərbaycan dövlətçiliyinin memarı, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyət – Ümummilli Lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu idi.***

O, hər zaman Ulu Öndərimizin yaxın sirdaşı, həyat dostu, ən böyük mənəvi dayağı olub.

Zərifə xanım Əliyeva 1923-cü il aprelin 28-də, təravətli bir yaz günündə qədim Naxçıvanın Şərur elinin Şaxtaxtı kəndində, görkəmli dövlət və elm xadimi, tibb elmləri doktoru, professor Əziz Əliyevin ailəsində dünyaya göz açmışdı. Atasının örnək davranışları və yaşam tərzi onun üçün əsl həyat məktəbi olmuş, zəngin və mənalı ömür yaşamağın sirlərini ondan öyrənmişdi. Ailədə böyüyən dörd övladın üçü – Zərifə Əliyeva, Tamerlan Əliyev, Cəmil Əliyev atalarının yolunu davam etdirərək həkimlik ixtisasını seçmiş, bu sahənin görkəmli mütəxəssisləri kimi tanınmış, Gülarə Əliyeva isə şöhrətli musiqiçi olmuşdur. Zərifə xanım 1932-1942-ci illərdə orta məktəbdə təhsil almışdır. 1942-ci ildə orta məktəbi bitirərək, Azərbaycan Tibb İnstitutunun (indiki ATU) Müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1947-ci ildə təhsilini uğurla başa vurmuşdur. İnsanlara həyat işığı bəxş etmək arzusu onu 1948-ci ildə Moskva Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutuna gətirib çıxarmış, burada oftalmologiya ixtisası üzrə kurs keçərək, göz xəstəliklərinin profilaktikası və müalicəsinin incəliklərini mənimsəmişdir.

Zərifə xanım Əliyeva 1950-1953-cü illərdə aspirantura təhsili almış, 1957-ci ilədək Azərbaycan Elmi Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi kimi fəaliyyət göstərmişdir. 1960-cı ildə uğurla dissertasiya müdafiə edib, tibb elmləri namizədi elmi dərəcəsi aldığı vaxtdan 1967-ci ilədək bu institutun böyük elmi işçisi, 1967-ci ildən isə Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun "Göz xəstəlikləri" kafedrasının dosenti vəzifəsində çalışmışdır.

İllər boyu apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələri Zərifə xanım Əliyevanın dünyada ən məşhur oftalmologiya mərkəzlərinin birində - H.Helmqolts adına Moskva Göz Xəstəlikləri Elmi Tədqiqat İnstitununda müdafiə etdiyi "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanlarının vəziyyəti" mövzusunda doktorluq dissertasiyasının əsasını təşkil etmişdi. O, 1977-ci ildə tibb elmləri doktoru elmi dərəcəsi alaraq, Əziz Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun professoru, Görmə orqanının peşə patologiyası laboratoriyasının müdiri, Oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifəsində çalışmışdır. Zərifə xanım Azərbaycan tibb elminə və səhiyyəsinə önəmli töhfələr vermişdir.

***Akademik Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələni təşkil edir. Onun elmi fəaliyyəti zəngin və əhatəli olmuş, oftalmologiyanın ən aktual mövzularına həsr edilmiş çoxşaxəli, konseptual tədiqatları tibb elmimizi zənginləşdirmişdir. Bir-birindən dəyərli 150-dən çox elmi əsər, 10 monoqrafiya, 12 səmərələşdirici təklif və dərs vəsaitlərinin müəllifi olan, Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıdan Zərifə Əliyevanın açdığı elm yolu bu gün də yeni nəsilləri elmin zirvəsinə doğru aparmaqdadır. Alimin zəngin elmi irsi ilə yanaşı, pedaqoji fəaliyyəti də çoxsaylı araşdırmaların mövzusu olaraq tədqiq edilir, yeni tədqiqatlara stimul və material verir.***





O, bir çox fəxri adlar, elmi titullar və mükafatlara layiq görülmüşdür. Qürur mənbəyi olan bu adların hər biri uzun illərin fədakar alim zəhmətinin bəhrəsi idi. Zərifə xanımın həyatda qazandığı ən möhtəbər, şərəfli ad isə Ana adıdır. Zərifə xanım Əliyeva Ümummilli Liderimiz Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin anasıdır.

Onun adı Azərbaycan oftalmologiya elmi tarixində misilsiz xidmətləri ilə yadda qalmışdır. Zərifə Əliyeva vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında olan peşə fəaliyyəti ilə (özəlliklə kimya və elektron sənayelərində çalışanlarla) bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə həsr etdiyi tədqiqatları ilə elmə ciddi yeniliklər gətirmişdir. Oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatlar ərsəyə gətirən alim, həmçinin "Terapevik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biridir.

Alimin tədqiqatlarının nəticələri yalnız Azərbaycan və ya keçmiş SSRİ səhiyyəsində deyil, bütövlükdə dünya oftalmologiyasında yeni cığırlar açmışdır. O, dünyada ilk dəfə görmə orqanının peşə patologiyasını araşdıran elmi tədqiqat laboratoriyası yaratmış və praktiki olaraq elm aləmində yeni istiqamətin – "peşə oftalmologiyası"nın əsasını qoymuşdur. Oftalmologiyada peşə xəstəlikləri problemlərinin öyrənilməsi məhz Zərifə xanım Əliyevanın adı ilə bağlıdır.

***O, elm tarixində ilk dəfə olaraq yod və şin sənayesi işçilərinin görmə orqanında yaranan peşə xəstəliklərini öyrənmiş, bu xəstəliklərin profilaktikası tədbirlərini işləyib hazırlamışdır. Böyük alimin uzun illər respublikanın 10-dan artıq iri sənaye müəssisəsində apardığı genişmiqyaslı elmi tədqiqat işləri nadir araşdırmalar sırasındadır. Həmin tədqiqatların nəticələri onun "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmologiya", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" adlı qiymətli monoqrafiyalarında öz əksini tapmışdır.***

Akademik Zərifə Əliyeva elm təşkilatçısı və ictimai xadim kimi də Azərbaycana böyük xidmətlər göstərirdi. O, Ümumittifaq Oftalmologiya Cəmiyyəti Rəyasət Heyətinin, "Sovet Sülhü Müdafiə Komitəsi"nin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Vestnik oftalmoloqii" ("Вестник офтальмологии», Moskva) jurnalının redaksiya heyətinin üzvü idi. Yüksək elmi uğurlarına görə keçmiş SSRİ-nin Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına, Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdü.

Vəfalı ömür-gün yoldaşı, gözəl ana, yüksək intellektual səviyyəsi ilə hələ gənclik illərindən sayılıb-seçilən alim Zərifə xanım Əliyevanın həyatı, elmi uğurları və həkimlik fəaliyyəti təsəvvürümüzdə mükəmməl bir şəxsiyyətin əzəmətli portretini canlandırır. Atası – görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqa xidmətə sərf etmiş Əziz Əliyevdən əxz etdiyi ali mənəvi keyfiyyətlər onu xalqcanlı bir vətənpərvər aydın kimi yetişdirmişdi. Zərifə xanım ata-anasına layiqli övlad, tələbkar və yüksək erudisiyalı alim, tanınmış həkim, sədaqətli həyat yoldaşı və çox qayğıkeş ana idi. Pak mənəviyyatı, bütün ruhu ilə öz işini sevən, ailəsinə bağlı, böyük ürəyi vətən sevgisiylə döyünən Zərifə Əliyevanın mənalı ömrü, keçdiyi şərəfli həyat yolu Azərbaycan xanımları, hər bir alim və həkim üçün örnəkdir.

Zərifə xanım zəngin elmi irs, dəyərli fundamental tədqiqatlar və onu tanıyanların yaddaşında gözəl xatirələr yadigar qoyaraq əbədiyyətə qovuşdu. Akademik Zərifə Əliyeva 1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat etdi. Məzarı Bakıda, I Fəxri Xiyabandadır. Görkəmli heykəltaraş Ömər Eldarovun yaratdığı, Zərifə xanımın məzarı üstündə ucaldılan mükəmməl tunc heykəl onun kübarlığını, xarakterik cizgilərini incəliklərinə qədər özündə əks etdirir.

**Mənbə: Qənirə Paşayeva**
**"Tarixə adını yazan Azərbaycan qadınları" I cild, Bakı, 2023**

# Mübarək Ramazan ayı

***"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi. Bəlkə, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!"***

***(Əl Bəqərə surəsi, 183-cü ayə)***

***İslamın müqəddəs bayramları içərisində orucluq bayramı mühüm yer tutur. Bu bayramın tarixi müsəlman təqvimi ilə hicrinin 2-ci ilindən (miladi 623-cü il) başlanır. Oruc Ramazan ayında tutulduğu üçün ona "Ramazan orucu" da deyirlər.***

İslamda ilin ayları arasında Ramazan ayı ən şəfaqətli və müqəddəs ay hesab edilir. Onu məcazi şəkildə "on bir ayın sultanı" da adlandırırlar, çünki bu ayın gecələrinin birində müqəddəs kitabımız olan Qurani-Kərim nazil olmuşdur. Həmin gecəyə "qədr" və ya "əhya" gecəsi deyilir. Qədr gecəsinin konkret olaraq hansı günə təsadüf edildiyi bilinmir. Bununla bağlı müxtəlif rəvayətlər vardır. Amma ümumi fikir belədir ki, qədir gecəsi Ramazan ayının son 10 gecəsindən biridir, həm də tək günün gecəsidir. İslamşünasların fikrincə, bu gecə Ramazan ayının **19, 21, 23, 25, 27**-sinə təsadüf edir. Müqəddəs Qurani-Kərimin "Qədr" surəsində qədir gecəsi haqqında belə yazılmışdır: ***"Biz bu gecə həqiqətən qüdrət, əzəmət hədiyyə etmişik, bu gecə min aydan da qüdrətlidir, mələklər aşağı enərək, Allahın əmrini gözləyirlər, bu gecə şəfəqin doğmasına qədər aləmdir, sübhdür".***



Orucluq Ramazan ayında təzə ay çıxandan başlanır və 29-30 gün davam edir. Qurani-Kərimdə yazılır: ***"Sübh açılınca, ağ sap qara sapdan fərqlənməyincəyə qədər yeyib-için, sonra gecəyə kimi orucunuzu tamamlayın".***

Qeyd edək ki, müsəlmanlar ən mühüm ibadətlərini, o cümlədən orucu və həcci, Fitr və Qurban bayramlarını hicri-qəməri təqviminə əsasən yerinə yetirirlər. Ayın isə Günəşə və Yerə nisbətən vəziyyətindən asılı olaraq müxtəlif səfhələri (ayın görünən xarici tərəflərindən hər biri) olur. Bu səfhələrdən biri də hilaldır, yəni təzə aydır. Qurani-Kərimdə deyilir ki, ***"(Ya Məhəmməd!) Səndən hilallar barədə soruşurlar. De: Bunlar insanlar və həcc üçün vaxt ölçüləridir".*** İnsanlar vacib ibadətlərinə ayın hilalına əsasən əməl etmişlər: hilalı görəndə oruclarını başa vurmuşlar.

**İki təzə ay arasında keçən müddət 29,5 orta Günəş gününə bərabərdir ki, bu da bir ay edir. Qədim ərəblər bunu vaxt vahidi kimi götürərək, bəzi ayları 29, bəzilərini isə 30 gün qəbul etmişlər.**

Ay ili biri 29, digəri isə 30 gün sürən 12 aydan ibarətdir. Ay (qəməri) təqvimi də buradan yaranmışdır. Bu təqvimə əsasən ilin uzunluğu 354 gün sürür. İkinci xəlifə Ömərin dövründə qərara alındı ki, tarixləri Məhəmməd peyğəmbərin (S.Ə.S) Məkkədən Mədinəyə hicrəti ilindən hesablasınlar. Beləliklə, Məhərrəm ayı ilə başlanan hicri-qəməri təqvimi yarandı. Bütün müsəlman ibadətlərinin, bayram və mərasimlərinin vaxtı bu təqvimə əsasən müəyyən edilir. **Ay təqvimi Günəş təqvimindən 10-11 gün qısa olduğu üçün hər bir müsəlman ibadətinin tarixi işlətdiyimiz Günəş təqviminə nisbətən 10-11 gün irəli keçir.**

Ay təqvimində də tarixlər sabitdir, bu tarixlər yalnız Günəş təqviminə nisbətən yerini dəyişir. Bizim Günəş təqviminə alışmış şüurumuz haradasa qeyri-müəyyənlik görür. İslam bayram və ayinlərinin müxtəlif fəsillərə təsadüf etməsində isə ilahi bir hikmət vardır.

Ramazan ayı orucluq, insan nəfsinin paklığı, eyiblərin və naqisliyin islah olunması, ağıl, iman və iradənin saflaşması dövrüdür. İnsan bu ayın dua və ibadətləri ilə eyiblərdən saflığa, saflıqdan kamilliyə doğru gedir. Bu ay ruhun tərəqqisi, Allaha tərəf pərvaz etməsidir. Oruc tutmaqdan yalnız uşaqlar, xəstələr, hamilə qadınlar, döyüşçülər, əsirlikdə olanlar və səyyahlar azad olunurlar.

**Döyüşdə və ya əsirlikdə olduğuna görə oruc tutmayanlar sonra münasib bir vaxtda onun əvəzini (qəzasını) tutmalı və ya fidyə verməlidirlər. Orucu qəsdən pozanlar isə onun əvəzini tutmaqla yanaşı, tövbə etməli və kəffarəsini ödəməlidirlər. Kəffarə isə 60 gün oruc tutmaq, yaxud 60 yoxsulu yedirtməkdir. 60 günlük kəffarə orucuna bir günlük qəza orucu da əlavə olunur.**

Bayram günü hər kəs öz himayəsində olanlar üçün təqribən 3 kq buğda, yaxud xurma və ya kişmiş miqdarında kasıblar üçün fitrə zəkatı verməlidir.

Orucluq insanlara öz iradələrini, dözümlülüyünü yoxlamaq imkanı verir, onları paklığa, xeyirxahlığa dəvət edir.

Orucluqla bağlı dini ayinlər əvvəlki səmavi dinlərdə də (yəhudilik, xristianlıq) mövcud olmuşdur. Amma digər dinlərdən fərqli olaraq İslamda orucluq xüsusi əhəmiyyət daşıyır. İslam qaydalarına əsasən yetkinlik yaşına çatmış hər bir müsəlmana oruc tutmaq vacibdir. Bu ibadət ayini ilə bağlı Məhəmməd peyğəmbərin (S.Ə.S) xeyli hədisi vardır. Həmin hədislərin birində deyilir ki, Adəm oğlunun hər bir əməli özü üçündür.

Sovet hakimiyyəti dövründə İslamın başqa ayinləri və ibadətləri kimi, orucluq da qadağan idi. Lakin imanlı adamlar gizlicə də olsa, öz borclarını yerinə yetirirdilər. Bir çoxları isə vəzifə və iş yerlərini itirməmək, təqiblərə məruz qalmamaq üçün orucluqdan imtina etməyə məcbur idilər. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra insanların vicdan azadlığı bərpa olundu, İslam dininə, onun ibadət və ayinlərinə olan münasibət də dəyişdi.

**Orucluq bayramı ölkəmizdə Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən dövlət səviyyəsində qeyd olunmağa başlandı.**

**Mənbə: anl.az**

# Goranboyda "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü" mövzusunda elmi-praktik konfrans keçirilib




Goranboyda "2023-cü il – Heydər Əliyevin 100 illik yubileyi" ilə əlaqədar, "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü" mövzusunda elmi-praktik konfrans keçirilib. Konfransda Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, Milli Məclisin deputatları - Ziyad Səmədzadə, Anar Məmmədov, Emin Hacıyev və Əliabbas Salahzadə iştirak ediblər. Tədbir iştirakçıları öncə Ümummilli Lider Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsini və Heydər Əliyev Mərkəzini ziyarət ediblər.

Sonra tədbir Olimpiya İdman Kompleksinin akt zalında davam etdirilib. Konfransdan əvvəl Ümummilli Liderin mənalı ömür yoluna və dövləti idarəçilik fəaliyyətinə həsr olunmuş rəsm və kitab sərgisi nümayiş etdirilib, videoçarx izlənilib. Tədbirdə çıxış edən icra başçısı Məhərrəm Quliyev, deputatlar - Ziyad Səmədzadə, Anar Məmmədov, Emin Hacıyev və RİH yanında ictimai şuranın sədri Gündüz Hacıyev Heydər Əliyevin fenomen şəxsiyyət və Ümummilli Lider kimi xilaskarlıq missiyasından, azərbaycançılıq ideologiyasından, Milli Qəhrəmanın həyat yoldaşı Rübabə İsmayılova isə Ümummilli Liderlə görüşü ilə bağlı unudulmaz xatirələrindən danışıblar. Sonda xatirə şəkli çəkdirilib.






# İqtisadi əməkdaşlıq və tərəfdaşlıq imkanları müzakirə olunur

Bakıda "Rusiya-Azərbaycan: Qarşılıqlı işgüzar fəaliyyət strategiyası, əməkdaşlıq və tərəfdaşlıq imkanları" mövzusunda dəyirmi masa keçirilib. Tədbir "Russian Business Guide" Nəşriyyat-Kommunikasiya Qrupu tərəfindən Rusiyanın Ticarət-Sənaye Palatası, Rusiyanın Azərbaycandakı Ticarət Nümayəndəliyi, Azərbaycanın Rusiyadakı Ticarət Nümayəndəliyi, "MBA-Moskva" Bankının (Azərbaycan Beynəlxalq Bankı) dəstəyi ilə təşkil olunub.

Tədbir hibrid formatında – Rusiyanın Ticarət-Sənaye Palatası ilə Azərbaycanın Rusiyadakı Ticarət Nümayəndəliyi arasında videokörpü rejimində keçirilib.

Tədbiri giriş sözü ilə açan Rusiya Ticarət-Sənaye Palatasının vitse-prezidenti Maksim Fateyev bildirib ki, Rusiya Azərbaycanın əsas iqtisadi tərəfdaşlarından biridir. O əlavə edib: *"Azərbaycanda Rusiyanın iştirakı ilə 900-dən çox birgə müəssisə fəaliyyət göstərir ki, onların da 300-ü xalis Rusiya kapitalı ilə işləyir. Energetika, maşınqayırma, sənaye, nəqliyyat və digər sahələrdə əməkdaşlıq genişlənir. Rusiyanın 70-dən artıq subyekti Azərbaycanla fəal əməkdaşlıq edir, öz regional platformalarında Azərbaycan biznesini qəbul edən və Azərbaycandakı Rusiya müəssisələrinin qarşılıqlı biznes missiyalarını təşkil edən regional ticarət-sənaye sektorumuz da bu işdə fəal iştirak edir".*

Müzakirələrdə Rusiya və Azərbaycanın biznes dairələrinin, Rusiya subyektlərinin hökumət nümayəndələri, ekspertlər, regional ticarət-sənaye palatalarının, logistika şirkətlərinin təmsilçiləri iştirak ediblər.



# Əsas kapitala yönəlmiş ümumi vəsaitin 57,9 faizi sənaye və tikintiyə sərf olunub

Cari ilin yanvar-mart aylarında əsas kapitala yönəldilmiş ümumi vəsaitin 41,1 faizi sənaye, 34,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 16,8 faizi tikinti, hər birində 2,5 faiz olmaqla kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, informasiya və rabitə sahələrinə sərf olunub.

Dövlət Statistika Komitəsindən bildirilib ki, həmin dövr ərzində sözügedən vəsaitin - 0,8 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 0,5 faizi maliyyə və sığorta fəaliyyəti, hər birində 0,4 faiz olmaqla turistlərin yerləşdirilməsi və ictimai iaşə, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 0,3 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 0,2 faizi digər sahələrdə xidmətlərin göstərilməsi, hər birində 0,1 faiz olmaqla peşə, elmi və texniki fəaliyyət, inzibati və yardımçı xidmətlərin göstərilməsi, təhsil, istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət sahələrinə sərf edilib.

# Ильхам Алиев выдвинул ультиматум карабахским сепаратистам



«Сепаратистам, выдумавшим в настоящее время себе вымышленные имена, один называет себя президентом, другой – министром, третий, не знаю, председателем парламента, этому сборищу шутов следует, наконец, знать, что нельзя испытывать наше терпение», - сказал, в частности, президент Азербайджана Ильхам Алиев в интервью Азербайджанскому телевидению.
Выразив уверенность в том, что большинство армянского населения, проживающего сегодня в Карабахе, готово принять гражданство Азербайджана, президент Алиев отметил: «Просто эти пиявки, эти дикие звери, сепаратисты не позволяют. Не дают этим людям жить спокойно, 30 лет держали их в качестве заложников. Поэтому моя позиция такова, пусть каждый услышит это - как руководство Армении, так и стоящие сегодня за ними силы: никто не сможет повлиять на нашу волю. Мы доказали это во время войны и после нее. Если понадобится, еще раз докажем в любой форме».
«Мы неоднократно заявляли, что не будем обсуждать наши внутренние дела ни с одной страной. Карабах – это наше внутреннее дело". Об этом, в частности, сказал президент Азербайджана Ильхам Алиев в интервью Азербайджанскому телевидению.
Глава государства отметил, что армяне, проживающие в Карабахе, должны либо принять гражданство Азербайджана, либо искать себе другое место жительства. «Здесь полная свобода, предлагаются все демократические основы.
Этот вопрос должен найти свое решение на основе прав человека», - подчеркнул президент Алиев.
Глава государства подчеркнул, что «за два с половиной года, прошедших со Второй Карабахской войны, Армения, ее покровители, а также поддерживающие ее страны и силы наглядно увидели нашу волю, решимость, силу".
Отметив, что за эти два с половиной года в направлении азербайджано-армянской государственной границы, а также в регионе, находящемся под контролем временно размещенных там российских миротворческих сил, произошло много важных событий, глава государства подчеркнул: «Мы неоднократно демонстрировали, что хозяева этих земель – мы, и мы никому не позволим хозяйничать на нашей территории».
Глава государства отметил, что сепаратистам следует знать, что у них есть два варианта выбора: либо будут жить под флагом Азербайджана, либо уедут.
«Мы как собак изгнали из Карабаха основных представителей сепаратистов – Сержика Саргсяна, Роберта Кочаряна, Сейрана Оганяна, поставили их на колени. Во время Второй Карабахской войны они приехали в Карабах якобы сражаться с нами. Все трое бежали с нашей земли как зайцы, сегодня ни один из них не может и носа сунуть ни в Ханкенди, ни в какое другое место», - отметил глава государства.

# Эли Коэн о новой эре в отношениях Азербайджана и Израиля



Министр иностранных дел Израиля Эли Коэн в рамках визита в Баку посетил синагогу в столице Азербайджана и встретился с членами еврейской общины.
Об этом израильский министр сообщил на своей твиттер-странице.
«Азербайджан – страна, которая всегда уважала еврейские общины, связь между нашими народами глубока. Я рад открытию посольства Азербайджана в Израиле, это символизирует новую эру в отношениях, и сказал членам общины, что Израиль всегда будет их домом», - написал израильский министр.

# Алиев о строительстве жилья в Карабахе

Уже в летние месяцы бывшие переселенцы смогут вернуться в город Лачин. Об этом заявил президент Ильхам Алиев в интервью Азербайджанскому телевидению.
«Если на первом этапе планировалось строительство чуть более 400 домов в городе Лачин, то, по последним данным, количество только индивидуальных домов составит 570. В летние месяцы этого года в город Лачин разместят более 700 семей», - сказал президент Азербайджана.
Как отметил Алиев, в городе Шуша успешно строится первый жилой комплекс. В ближайшее время будет заложен фундамент второго большого жилищного комплекса.
Глава государства также подчеркнул, что строительство жилых зданий в городах Агдам, Физули, Зангилан идет по плану, а в городах Кельбаджар и Джебраил проводятся подготовительные работы.

# Сотрудничество с Боснией и Герцеговиной даст плодотворные результаты



Сотрудничество между Азербайджаном и Боснией и Герцеговиной в сфере энергетики даст плодотворные результаты. Об этом сказал Trend бывший член Президиума Боснии и Герцеговины, член Международного центра Низами Гянджеви Шефик Джаферович.
Он отметил, что визит Президента Ильхама Алиева в Боснию и Герцеговину, подписание декларации о стратегическом партнерстве - яркий пример твердой приверженности сотрудничеству и дальнейшему укреплению наших двусторонних связей.
По словам Джаферовича, Босния и Герцеговина и Азербайджан известны как дружественные, братские страны с момента установления дипломатических отношений, а за прошедший период удалось поднять эти связи на еще более высокий уровень.
Он отметил, что Босния и Герцеговина находится в непосредственной близости от единого европейского рынка.

# Британский депутат понаблюдал за процессом разминирования в Агдаме



Руководитель группы дружбы с Азербайджаном в парламенте Великобритании Боб Блэкмен понаблюдал за процессом разминирования в Агдаме во время своего визита в Азербайджан на прошлой неделе.
Об этом он написал на своей странице в Twitter.
«Армянскими силами на территории Азербайджана было установлено более 1 миллиона мин. Теперь отважные люди занимаются разминированием, чтобы очищенные от мин территории можно было использовать для строительства жилых домов и ведения сельского хозяйства», - пишет Блэкмен.

# Россия и Азербайджан имеют большие перспективы для роста экономического взаимодействия

Россия и Азербайджан имеют большие перспективы для дальнейшего роста торгово-экономического взаимодействия. Об этом, как сообщает Trend, сказал вице-президент Торгово-промышленной палаты РФ Максим Фатеев в ходе круглого стола на тему «Россия - Азербайджан: стратегия делового взаимодействия, возможности для сотрудничества и партнёрства».
По его словам, все регионы РФ заинтересованы в расширении взаимодействия с Азербайджаном.
«Прежде всего, российские компании заинтересованы в расширении сотрудничества в секторах транспорта, промышленности, судостроения, сельского хозяйства и инвестиций, а также по проектам цифровой трансформации», - сказал он.
Фатеев считает, что заинтересованность субъектов предпринимательства двух стран говорит о больших перспективах дальнейшего роста торгово-экономического взаимодействия.



# МИД: Установленные Арменией мины продолжают убивать граждан Азербайджана

Мины, установленные Арменией, продолжают убивать и калечить граждан Азербайджана, говорится в публикации на официальной странице МИД Азербайджана в Twitter. В публикации говорится, что во вторник, 18 апреля, в Тертерском районе в результате разрыва мины пострадал мирный житель. Тем самым число пострадавших от мин по окончании войны достигло 291 человека. «Армения по-прежнему отказывается предоставлять точные минные карты», - отмечается в публикации.

# Страны G7 намерены принять план действий по искусственному интеллекту

Министры стран Группы семи (G7), ответственные за цифровизацию и технологии, в ходе предстоящей в конце апреля встречи намерены принять план действий по искусственному интеллекту (ИИ). Об этом сообщила в среду газета Yomiuri со ссылкой на правительственные источники, передает Trend со ссылкой на ТАСС.
Отмечается, что главы цифровых ведомств "семерки" хотят выступить за реализацию концепции "ответственного ИИ" на фоне опасений по поводу утечек данных при использовании чат-бота ChatGPT и других аналогов. Министры G7, как ожидается, сформулируют несколько отдельных документов по управлению ИИ, а также надежному и свободному распространению данных в сетевом пространстве, видению следующего поколения высокоскоростной связи 6G.
Кроме того, в итоговом заявлении они намерены подтвердить важность безопасности подводных коммуникационных кабелей и решительно осудить правительственные ограничения на доступ в интернет.

Qarabağın görkəmli simaları

# Ağalar bəy Əliverdibəyov (1880-1953)

***Azərbaycan musiqişünası Ağalar bəy Kərbəlayi Ələkbər bəy oğlu Əliverdibəyov 1880-ci ildə Şuşa qəzasının Pərioğlular kəndində anadan olmuşdur. Uşaqlığı Şuşa şəhərində keçmişdir.***



O, Ağdamın dövlətli mülkədarı, xan qızı Xurşidbanu Natəvanın süd qardaşı Kərbəlayi Ələkbər bəy Əliverdi bəy oğlu ilə Telli xanım Mir Abdulla bəy qızı Vəzirovanın altı övladından biri idi. Kərbəlayi Ələkbər bəyin birinci nikahından daha üç övladı olmuşdur. **Onlardan biri də dahi Üzeyir Hacıbəyovun anası Şirin xanım idi. Şirin xanımla Ağalar bəy Natəvanın başçılıq etdiyi "Məclisi-üns"ün yığıncaqlarında fəal iştirak edirdilər. Ağalar bəyin babası Əliverdi bəy Hüseyn bəy oğlu Mehdiqulu xanın Ağdam üzrə darğası olmuşdur.**

Əliverdibəyov bəstəkarlar - Üzeyir Hacıbəyov, Zülfüqar Hacıbəyov və ictimai-siyasi xadim Ceyhun Hacıbəylinin dayısıdır. Bəstəkar Nazim Əliverdibəyovun, skripkaçı Rasim Əliverdibəyovun, dirijor Kazım Əliverdibəyovun, pianoçu Nüşabə Əliverdibəyovanın atasıdır.

Ağalar bəy Əliverdibəyov mükəmməl Avropa təhsili almış mütərəqqi ziyalılarımızdan biri olub. **O, 1901-ci ildə Peterburq Texnoloji İnstitutunu, sonra isə Varşava İnşaat İnstitutunu bitirmişdir. Gənc mütəxəssis 1913-cü ildə vətənə qayıtmış, Bakı şosse yolları idarəsində mühəndis vəzifəsində işləmişdir.** O, həmçinin gözəl muğam bilicisi kimi A.Zeynallı adına Bakı Musiqi Texnikumunun xanəndəlik sinfində dərs demişdir.

A.Əliverdibəyov ixtisasca inşaat mühəndisi olsa da, Şuşanın mədəni mühiti onun bir musiqişünas kimi yetişməsində, həqiqətən, konservatoriya rolunu oynamışdır. Bu aydın zəkalı maarif xadiminin yüksək bilik səviyyəsi və cari musiqi həyatına sıx bağlılığı Azərbaycanda müasir musiqişünaslıq təfəkkürünün formalaşmasına öz töhfəsini vermişdir.

Gənc yaşlarından A.Əliverdibəyov müxtəlif xalqların musiqi tarixinə böyük maraq göstərmiş, bu mövzuya aid ədəbiyyatı diqqətlə mütaliə etmiş, Qarabağın və ümumiyyətlə, Azərbaycanın musiqi həyatı sahəsində qiymətli müşahidələr aparmış, müxtəlif dünya xalqlarının mədəniyyətini əhatə edən **"Musiqi tarixi"** adlı dolğun məzmunlu kitab yazmışdır. Ağalar bəy muğamın sirlərini məşhur xanəndə Hacı Hüsünün ustadı sayılan, dayısı Mir Baba Mir Abdulla oğlu Vəzirovdan öyrənmişdir. Öz növbəsində Ağalar bəy Üzeyir Hacıbəyovun ilk müəllimi olmuş, dahi bəstəkarın qəlbində xalq musiqisinə və muğam sənətinə qarşı böyük məhəbbət hissi oyatmışdır.

Ağalar bəy Qarabağın musiqi salnaməsini yazmaqla yanaşı, başqa muğam məktəblərinin (Şirvan, Bakı) nümayəndələrini də qeyd edir, bundan başqa İrəvan, Lənkəran, Nuxa və Salyanın muğam ifaçıları haqqında dəyərli faktlar göstərir.

A.Əliverdibəyov doğma musiqi folklorunun qayğıkeş toplayıcısı hesab edilməlidir. Ağalar bəy isə el havalarını əvvəlcə özünün qeyri-adi musiqi hafizəsinə köçürmüş, sonra da onların nota yazılmasında bəstəkar Səid Rüstəmova böyük yardım göstərmişdir.

Əliverdibəyovun oxuduğu mahnılar arasında bir çox məşhur nümunələri göstərmək olar: **"Söhbət saz ilə", "Yaxan düymələ", "Çalpapaq", "Kəklik", "Nəzr eyləmişəm", "Üçtelli durna", "Xumar oldum", "Neylərsən", "Dedim bir busə ver" və s.** Eyni zamanda, A.Əliverdibəyovun səsindən nota yazılan bəzi nümunələr hələ indiyə qədər işıq üzü görməmişdir. Onların nəşri və araşdırılması da milli musiqişünaslığımızın mühüm vəzifələrindəndir.




# Ş.Əlirzayeva: "Həyat tərzini dəyişmək şəkərli diabetdən qorunmanın ən effektiv yoludur"

***Şəkərli diabet bütün dünyada qlobal problemdir. Beynəlxalq Diabet Federasiyasının məlumatına görə, bu gün təxminən 537 milyon insan şəkərli diabetdən əziyyət çəkir ki, bu da planetin ümumi əhalisinin 6,028%-ni təşkil edir. Hər il şəkərli diabetə düçar olma halları artır. Vəziyyət eyni sürətlə inkişaf etməyə davam edərsə, 2025-ci ilə qədər şəkərli diabet xəstələrinin sayı 2 dəfə artacaq. Ölüm səbəbinə görə dünyada şəkərli diabet xəstəliyi kardioloji və onkoloji xəstəliklərdən sonra üçüncü yeri tutur.***



Bu xəstəlik barədə söhbət etmək üçün Mərkəzi Gömrük Hospitalının endokrinoloqu Şəbnəm Əlirzayevaya müraciət etdik.

**- Şəbnəm həkim, şəkərli diabet nədir? Azərbaycanda bu xəstəliklə bağlı vəziyyət necədir?**

- Şəkərli diabet orqanizm tərəfindən yaradılan insulinin kifayət qədər olmaması və ya onun təsir effektinin pozulması nəticəsində meydana çıxan, qanda şəkərin yüksəlməsi ilə xarakterizə olunan xroniki endokrin xəstəlikdir. Bu xəstəliyin əsas xüsusiyyətlərindən biri odur ki, erkən mərhələdə özünü göstərmir, orqanizmdə gizli gedir. Onu adətən laborator müayinələr vasitəsilə müəyyən edirlər.

Şəkərli diabet bütün dünyada mühüm tibbi, iqtisadi və sosial problem sayılır. Beynəlxalq Diabet Federasiyasının proqnozuna görə, 2045-ci ilə bu xəstələrin sayında 783 milyona qədər artım gözlənilir. Statistik məlumatlara görə, Azərbaycanda da diabet xəstələrinin sayında artım müşahidə olunur.

**- Prediabet barədə nə deyə bilərsiniz? Bu mərhələdən sonra mütləq şəkərli diabet aşkar olunurmu?**

- Prediabet sağlam orqanizm və diabet arasında bir sərhəddir. Prediabet aşkarlanan insanlar 2-ci tip şəkərli diabet riski altındadırlar. Bu prediabetik vəziyyət təhlükəli olmasına baxmayaraq, tamamilə müalicə edilə bilər. Elmi tədqiqatlar göstərir ki, xroniki ağırlaşmalar diabetdən əvvəlki mərhələdə artıq inkişaf etməyə başlayır. Diabet diaqnozu qoyulduğu zaman orqan zədəsi artıq mövcuddur və qarşısını almaq mümkün deyil.

Buna görə də xəstəliyin vaxtında aşkarlanması vacibdir. Prediabet, 1-ci və 2-ci tip şəkərli diabetin diaqnozu kliniki simptomların, xəstə haqqında toplanmış anamnezin və laborator müayinələrin nəticələri əsasında qoyulur.

**- Şəkərli diabetə hansı yaşlarda daha çox rast gəlinir?**

- Çox təəssüf ki, hazırda diabet yaşı cavanlaşıb. Əgər əvvəllər diabet 50-60 yaşda yaranırdısa, indi 25-30 yaşda da yaranır. Diabet artıq çəki və piylənmə ilə birgə müşahidə olunur və bu vəziyyət son zamanlar çox geniş yayılıb. 20-25 yaşda 2-3-cü dərəcəli piylənməsi olan şəxslərə çox vaxt şəkərli diabet diaqnozu qoyulur və onlarda müalicəyə ehtiyac yaranır.

Çox təəssüf ki, hazırda uşaqlar arasında da diabet yayılıb. Dünyada 1-ci tip diaqnozlu uşaq və yeniyetmə pasiyentlərin sayı 1,2 milyondan artıqdır. Birinci tip şəkərli diabet yeniyetmələr arasında daha çox rast gəlinir. Əksər hallarda körpə uşaqlarda şəkər xəstəliyinin ola biləcəyini düşünmürlər, lakin bu, belə deyil. Uşaqlar arasında şəkər xəstəliyi daha çox yeniyetməlik dövründə yaransa da, körpəlik çağında da bu xəstəlik müşahidə olunur. Son illərdə kiçik yaşlı uşaqlarda diabetin ən çox 3 dövrdə (2-4, 6-8 və 10-12 yaşlarda) yaranması qeyd olunur.

**- Şəbnəm həkim, çox vaxt hamiləlik dövründə qanda şəkərin miqdarı yüksəlir. Bu, nədən baş verir və bu, şəkərli diabetin başlanğıcıdırmı?**

- Hamiləlik zamanı qanda şəkərin yüksəlməsi maddələr mübadiləsinin pozulması ilə əlaqədardır. Gələcək anaların orta hesabla 7%-i (1%-dən 20%-ə qədər) bu problemlə üzləşir. Əksəriyyətində doğuşdan sonra bu patologiya izsiz keçib gedir, amma 10-15%-ində 2-ci tip şəkərli diabetə keçir. Bunun qarşısını almaq üçün hamiləliyin ilk günlərindən sağlam qidalanmaq, fiziki aktivliyi qorumaq lazımdır.

**- Şəkər xəstəliyinin geniş yayılmasının əsas səbəbləri hansılardır?**

- Son zamanlar sürətlə artan və genetik ötürülən şəkər xəstəliyinin əsl səbəbi azhərəkətli həyat tərzi və düzgün olmayan qidalanmadır. Düzgün olmayan qidalanmaya qanda şəkəri sürətlə yüksəldən qidaların (şəkərli qazlı içkilər, hazır meyvə suları, ağ un, ağ çörək, ağ düyü), qırmızı və işlənmiş ətlərin (kolbasa, sosiska), doymuş trans yağların, paketlənmiş qidaların istifadəsi aiddir. Aparılan araşdırmalara görə, bunların günlük rasionda çox sıx istifadəsi tip 2 şəkərli diabet riskini 70% artırır.

**- Hansı qidalar qanda şəkəri artırır?**

- Qanda şəkəri sürətlə yüksəldən karbohidratlı qidalara - şəkər, bal, mürəbbə, cem, marmelad, şəkərli sular, şokolad, dondurma, şirniyyatlar, şərbətlər, undan hazırlanmış çörək, lavaş, əriştə, makaron, düyü aiddir. Bundan başqa, gündəlik olaraq uşaqlara alınan hazır paketlənmiş şirniyyatlar, çipsi kimi atışdırmalıq qidaların tərkibində olan ziyanlı, doymuş və trans yağlar qandakı xolesterin səviyyəsini artırır, yüksək xolesterin şəkər xəstəliyi üçün önəmli risk faktoru yaradır. Həmçinin bu qidaların və şirin qazlı içkilərin qəbulu mədəaltı vəz tərəfindən insulin sekresiyasını artırır, bu da insulin dirəncini artırmaqla şəkərli diabetin yaranmasına təkan verir.

**- Şəkərli diabetdən qorunmaq, qanda şəkərin qalxmaması üçün nə etmək lazımdır?**

- Tədqiqatlar da göstərir ki, həyat tərzini dəyişmək şəkərli diabetdən qorunmanın ən effektiv yoludur. Bunun üçün rafinə olunmuş karbohidratlardan və şəkərdən imtina etmək, mütəmadi olaraq idmanla məşğul olmaq, çəkini optimal normada saxlamaq, su qəbulunu artırmaq, streslərdən uzaq olmaq, siqaret çəkməkdən və spirtli içkilərdən imtina etmək məsləhət görülür. Qidalanmanın əsas hissəsini tərəvəz, meyvə, yarmalar (qarabaşaq, yulaf yarması və s.), yağlılığı aşağı olan süd məhsulları, yağı az olan ət, balıq, toyuq təşkil etməlidir. Gün ərzində qidanı az-az və tez-tez (5 dəfə) qəbul etmək məsləhətdir.

Özünüzdə susuzluq, ağızda quruluq, heç bir səbəb olmadan arıqlama, zəiflik, dəridə qaşınma əlamətləri hiss etdikdə mütləq diabet profilli laborator müayinədən keçməlisiniz. Əgər sizdə şəkər aşkar edilərsə, mütləq keçmiş həyat tərzinizi yenidən nəzərdən keçirin – özünüz üçün düzgün həyat tərzini müəyyənləşdirin. Bu, şəkəri normal səviyyəyə qaytarmaq və diabetin qarşısını almağın yeganə yoludur.

**Müsahibəni apardı:**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**
**Dilara Zamanova**




Azəri Light və Brent markalı neftin bir barelinin 12– 19 aprel tarixlərində birja qiyməti, ABŞ dolları ilə (ICE birjası)

**İqtisadçı ekspert:**
**Maqsud Quliyev**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500